# ÇİNGİZ ÖMRÜNÜN POETİK XRONİKASI

*(Əvvəli ötən saylarımızda)*

Azərbaycanın tarixi taleyində istiqlala çatmanın, müstəqilliyə qovuşmanın, azadlıq vüsalına yetmənin ən faciəli mərhələsi mübarizələrimizin 90-cı illəri ilə daha çox bağlıdır. Ona görə ki, yeni dünya düzənində güc sahibləri Azərbaycana qarşı diş qıcamaq imkanı qazanmışdılar. Çünki Azərbaycanda siyasi hakimiyyət kifayət qədər zəifləmişdi. Yeri gəlmişkən, bu günün özündə belə Avropanın müəyyən dairələrində sığınacaq almış və onların vəsaiti ilə nəfəslik (güc) əldə etmiş şəxslər var ki, Azərbaycanın ictimai-siyasi sabitliyini pozmağa yönəlik fəaliyyət göstərirlər. Bütün imkanlarını sərf edirlər ki, Azərbaycanda ictimai-siyasi sabitliyi pozsunlar, vəziyyəti gərginləşdirsinlər, əgər belə demək mümkünsə, təzədən düşmənə fürsət versinlər.

Heç birimizə sirr deyil ki, Birinci Qarabağ müharibəsində Azərbaycanın məğlubiyyəti beyin mərkəzinin iflici ilə daha çox bağlı idi. Erməni hərbi qüvvələrinin qarşısında dura biləcək kifayət qədər güc var idi. Amma siyasi beyin mərkəzinin iflici bu gücün müqavimətini heçə endirirdi.

Qərbi Azərbaycandan, yəni Ermənistan ərzisindən azərbaycanlıların deportasiyası faciələrlə müşayiət olunurdu. İnsanlar təkcə yerindən, yurdundan didərgin edilmir, həm də imkan düşdüşcə öldürülür, girov saxlanılır, varlarının, mülklərinin talan edilməsinə isə heç söz yox idi. Belə bir şəraitdə Azərbaycan hökuməti azərbaycanlıları nəinki Vətənindən kənarda, heç Vətənin içində belə müdafiə etmək imkanında deyildi.

Şübhəsiz, elə bu səbəbdən də bir-birinin ardınca ermənilərin azərbaycanlıları kütləvi şəkildə qətl etmələri, ayrı-ayrı kəndlərin qətliamlarla müşahidə olunan işğalı bir növ zəncirvari silsilə şəklini almışdı. Azərbaycanın vətənpərvər oğulları, konkret olaraq Çingiz Fuadoğlu kimi gəncləri belə gərgin zamanlarda köməksiz, əli heç bir yerə çatmayan insanları müdafiə etmək üçün təşəbbüslər göstərirdilər. Bu təşəbbüslər dağınıq, hətta demək olar ki, o qədər pərakəndə idi ki, heç bir fayda vermirdi.

Artıq Xocalı faciəsi baş vermişdi. İnsanlar ermənilərin demək olar ki, iç üzünü kifayət qədər aydınlığı ilə görmüşdülər. Çox təəssüf ki, həyatın bu acınacaqlı mənzərələri dünyanın müəyyən siyasi dairələri tərəfindən biganəliklə qarşılanırdı. Azərbaycanın haqq səsinə səs verən yox idi.

Belə bir vaxtda Çingiz Fuadoğlu özünün fideokamerası ilə cəbhə boyu hərəkət edir, ən gərgin məqamlarda torpağı işğal olunan, ölümlə təhdid edilən insanların canına can atırdı. Onun haradasa görünməsi həmin ərazidəki köməksiz insanların sonuncu ümidinin qorunması demək idi. Adamlara elə gəlirdi ki, Çingiz Fuadoğlunun göründüyü hər hansı bir yer təhlükəsiz olar, qorxusuz olar. Çünki onun nüfuzu vardı, cəmiyyət, Azərbaycan xalqı Çingizin olduğu yeri bütövlükdə işıq kimi görürdü.

Bəli, Çingiz döyüşçü idi. O, avtomatdan atəş açmırdı, topçu deyildi, düşmənin üzərinə mərmi yağışı göndərmirdi. Amma o, inam döyüşçüsü idi. Öz gəlişi ilə həm döyüşçülərə, həm də yerli sakinlərə inam aşılayırdı. Onların qələbənin kimin tərəfində olacağını bildirirdi. Axı Çingizin düşüncəsinə görə, kim haqlıdırsa, qələbə də onun olmalı idi. Çingiz insanlara haqlı olduqlarını, doğru olduqlarını və ona görə də güclü olduqlarını təlqin edirdi.

Şair-publisist, tədqiqatçı Məlahət Soltanqızı «Yarımçıq ömrün xatirəsi» poemasında Çingizi təkcə videokamera ilə görüntüləri çəkən mütəxəssis kimi təqdim etmir. O, Çingizi Azərbaycan vətənpərvəri kimi obrazlaşdırır. Onu təbiətindən gələn, ruhundan gələn bir səslə oxucuya çatdırmağa çalışır. Bir sözlə, M.Soltanqızının da düşüncəsində Çingiz döyüşçüdür, ancaq fikir döyüşçüsüdür, təlqin döyüşçüsüdür.

Müharibələrin tarixi göstərir ki, qəhrəman təkcə silahla atəş açan deyil, döyüşçünü qəhrəman ola biləcəyinə inandıranın özü də qəhrəmandır. Məhz Çingiz Fuadoğlu Birinci Qarabağ müharibəsində bu düşüncənin qəhrəmanı idi. Bu motivi M.Soltanqızı əsərində kifayət qədər canlılığı ilə verə bilir:

***Çingizin döyüş yolu elə asan olmadı.***  
***O orduda həm əsgər,***  
***həm də komandan oldu.***  
***Hələ bərkiməmişdi ordunun sıraları,***  
***İnsanlar tərk edirdi qorxudan torpaqları***  
***Düşmənə dəstək verən***  
***qüvvə vardı arxadan***  
***Pərən-pərən olmuşdu insanlar yuvasından,***  
***Xocalıda yaşanan o acı müsibətin***  
***Ağrısı səngiməmiş,***  
***Çəkdiyi ağrı, acı gözlərindən getməmiş.***  
***Düşüncələr tərk etmirdi bircə an,***  
***Bu millətin dərdləri***  
***Bitəcəkdir nə zaman?***  
***Özü də anlamırdı***  
***Burda nələr baş verir.***  
***Heç bir hücum olmamış rayonlar tərk edilir.***  
***Kim vermişdi bu əmri?***  
***Bəlkə, Xocalı xofu sarmışdı insanları?***  
***Yurdunu, yuvasını, öz isti ocağını***  
***Tərk etmək, ayrılmaq belə asanmı?***  
***Bəs yurda bağlılıq,***  
***bəs xatirələr?***  
***Müharibə yaxmışdı insanların canını,***  
***Artıq xəyallara yer qalmamışdı.***  
***Hər gün şəhid qanı axır torpağa***  
***Analar gözü yaşlı,***  
***Qara libas geyinmiş.***

Müəllif bu hissədə müharibənin xatakterinə, Xocalı xofunun mahiyyətinə xüsusilə diqqət ayırır. Dinc insanların həyatına qəsd edən erməni vandallarının təbiətindən gələn idbarlığın bədii fonda görüntülərini M.Soltanqızı çox dəqiqliklə yazıya gətirir. Hiss olunur ki, o, əsər üzərində fiziki əziyyət çəkmir. Çünki ruh etibarilə Xocalı faciəsinin, Qarabağ müharibəsinin nə demək olduğunu bir qələm əhli kimi kifayət qədər mənimsəyib. O, müəyyən psixoloji məqamları nə demək olduğunu yaxşı bilir.

Bir sözlə, Məlahət Soltanqızı öz poemasında epik-lirik motivlərlə Qarabağ faciəsinin Çingizin iştirakı ilə baş verən məqamlarına xüsusi diqqət ayırır. O, sanki öz qəhrəmanının əvəzində xalq sevgisinin, Vətən sevgisinin, bir sözlə, Qarabağın Azərbaycan xalqının tarixi taleyindəki yerinin nə demək olduğunu poemada can yanğısı ilə misralara çevirir.

M.Soltanqızı müharibənin xronikasını davam etdirir. Onun üçün poemasının növbəti fəslində 92-ci ilin yaz fəslinin sonuncu ayıdır. Bu o dövrdür ki, Azərbaycanda beyin mərkəzi tam iflic olub. Hakimiyyət müəyyən iddiaların ortasındadır. Kim taca sahib çıxacaq, yaxud da kim tacı qoruya biləcək. Belə bir vəziyyətdə sərhədlər heç kimin gözünə görünmür. Elə bu səbəbdən də Azərbaycan üçün elə öz ölkəsinin içərisində xalqının ağlar günə qalan mənzərəsi göz önündədir:

***1992 yazın sonuncu ayı,***  
***Bu gün yenə hücum var,***  
***Hamı əmri gözləyir.***  
***Çingiz də dayanmış əmrə müntəzir,***  
***Bir azdan düşmənə vurmaqçün zərbə***  
***Plan hazırlanmış,***  
***Hər bir döyüşçü***  
***Bu günkü döyüşçün tapşırıq almış***  
***Zaman şahididir bu olanların***  
***Kim kimdir döyüşdə anlayacaqsan,***  
***Qəhrəmanı, qorxağı***  
***Burda tanıyacaqsan***  
***Yağış kimi başına səpələnən güllələr,***  
***Qorxmazlığı, mərdliyi***  
***Burda sənə öyrədər.***  
***Vətən sevgisiylə döyünən ürək,***  
***Ölümlə üz-üzə dayansın gərək.***

Məlahət Soltanqızı Vətən sevgisilə döyünən ürəkləri tərənnüm edir. Biz onun emosional duyğulanmaları ilə dövrü, zamanı kifayət qədər təsəvvürümüzdə canlandıra bilirik. Və həm də onu da hiss edirik ki, qəhrəmanımızın əhatəsində olan mənəvi mühit kifayət qədər daralmaqdadır. İndi Çingiz daha çox güllələrin sayrışdığı yerdədir. İndi Çingiz daha çox ölümlərin nəğmə oxuduğu yerdədir.

Axı biz ölümləri sakit, sükunət nəğməsi kimi qavrayırıq. Ancaq biz Çingiz Fuadoğlunun əhatəsini səsli ölümlərin müşayiət elədiyi mənzərəni görürük. Bu mənzərənin özü Çingiz Fuadoğlunun kimliyini, onun ölümlərin içində belə nə qədər dönməz olduğunu göstərən məqamlardır. Görünür, ölümlərin özü də hardasa canlı bir varlıq kimi öz ünvanını axtarır: ***"15 iyun 1992, Xocalı rayonunun Naxçıvanlı kəndində, Hücum əmri verildi... Hər kəs tutdu öz yerin, Güllələr havada uçur quş kimi, Düşmən sal qayalıqda, Oturub bayquş kimi, Burda nizamlı ordu, Hələ qərarlaşmayıb. Döyüşən oğulların, Çoxu könüllülərdi. Harda döyüş var idi, Çingiz də orda idi. O gün qanlı döyüşdə, Çingiz də yaralandı. Düşmənin mərmisiylə, Sol dizi parçalandı. Bu adi bir yaramı? Yoxsa ölüm yarası? Qan sel, su tək axırdı, Hamı durub baxırdı. Bu balaca bir yara, Bir igidi apardı, Bu sevdiyi həyatdan, Onu zorla qopardı. Çingiz şəhid oldu, Elə həmin gün. Çırpınaraq ruhuyla, O ölüm qəfəsində, -Vətən, vətən - söylədi, Son, axır nəfəsində".*** Qətiyyən istəməzdim ki, bu poetik lövhəni nəsr sətirləri arasına sığışdırım. Axı bu sətirlərin içərisində sözə çevrilmiş güllələrin də səsini eşidirəm. O güllələrin səsini eşidirəm ki, orada məhz Çingiz Fuadoğluna doğru yönələni də var. Bəs bu səsi necə eşitməmək olar. Və ən başlıcası, müəllifin bu səsi eşitməyinə oxucunun özü də çox mütəəssir olur. Kim istəyər ki, ölümün səsini eşitsin. Özü də Çingiz Fuadoğluna tərəf gələn ölümün səsini.

Bu yerdə müəllifin Çingiz Fuadoğlunun ölümü ilə bağlı, ən başlıcası, ölümün özü ilə bağlı düşüncələrini oxumaq heç də asan deyil. Əgər belədirsə, onda səbiri, hövsələsi və əsəbləri tarıma çəkilmiş oxucunu bir az da daha artıq həyəcana dəvət edək: ***"Heç kim sevmir ölümü, Təkcə ruhdan savayı. Ölüm ruhun bayramı! Qələm bəzən acizdir, Olanları yazmağa. İnsanın gücü yetməz, Ölüm adlı məfhumun, Qarşısını almağa".*** Yazağzı güllər açılır, çəmənlər üzə gülür, bülbüllər nəğmə oxuyur. Həzin bir çiləmə yağış da olur. Amma bütün bunların hamısı sanki yeni həyata bir nəfəsdir. Di gəl ki, birdən-birə buludlar toqquşur, aləm bir-birinə dəyir, sellər-sular köklü ağacları da ağzına alıb bir sonsuzluğa doğru aparır. Bu, Çingiz Fuadoğlu kimi bir qəhrəmanın ölümünə elegiyadır.

Əsas elegiyanı isə müəllif əsərinin sonunda ənənəvi poetik üslübda qələmə gətirir:

***24 il olacaq sənin ölüm tarixin***  
***Yenə də şəhidlər verir bu torpaq.***  
***Yenə dolan gözlər, yenə intizar,***  
***Nigaran baxışlar, yenə ahu-zar.***

***Bir gün bitəcəkmi görən bu acı?***  
***Vətən torpaqları birləşəcəkmi?***  
***Tikanlı məftillər, soyuq səngərlər,***  
***Bir gün yer üzündən silinəcəkmi?***

***Yenə də oğullar əsir alınır...***  
***Yenə də amansız işgəncələr var...***  
***Düşmən at oynadır torpağımızda,***  
***Əsgər anaları çox narahatdır.***

***24 il olacaq sənin ölüm tarixin,***  
***Yenə də şəhidlər verir bu torpaq.***  
***Yenə səngərlərdə, qarda, yağışda***  
***Əsgərlər, zabitlər növbə başında...***

Bu əsəri müəllif 2015-2016-cı illərdə elə bizim Bakı şəhərində yazıb. Əgər belə demək mümkünsə, Xocalı hadisəsindən iyirmi dörd il sonra və üstəlik elə təqribən Çingizin ölümündən də bir o qədər keçən zamanda qələmə alıb.

Hər bir əsərin yazılması, araya-ərsəyə gəlməsi, oxucu düşüncəsinə çatması üçün müəyyən qədər vaxt lazımdır. Bəzən bu vaxt çox uzanır.

Çingiz Fuadoğlu Azərbaycanın Milli qəhrəmanıdır. Onun haqqında çox əsərlər yazılıb, sənədli filmlər çəkilib. Publisistik bədii janrlarda yazılanlar, çəkilənlər onun obrazını hələ də axıra qədər tamamlaya bilməyib. Heç biz o iddiada deyilik ki, Məlahət Soltanqızının "Yarımçıq ömrün xatirəsi" poeması da Çingiz ömrünün bədii xronikası üçün sonuncudur.

Yox, hələ Çingiz haqqında çox yazılacaq, çox deyiləcək. Əsas odur ki, gələcəkdə Çingiz haqqında yazanlar onun haqqında yazılanların hamısını axtaracaq, kimin nə yazdığını öyrənməyə çalışacaq. Şübhəsiz o zaman M.Soltanqızının da "Yarımçıq ömrün xatirəsi" poeması bir daha yada düşəcək.

Çingiz Fuadoğlunun yaşadığı bütün zamanlar boyu Məlahət Soltanqızının "Yarımçıq ömrün xatirəsi" əsəri də yaşarı olacaq!

***Əli Rza XƏLƏFLİ***  
***06.09.2022.***